**Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda zal nəzarətçisi qismində iştirak etmək istəyən namizədlərin fəaliyyətinin sertifikatlaşdırılması Qaydaları**

1. Dövlət İmtahan Mərkəzi (bundan sonra- DİM) tərəfindən keçirilən imtahanlarda zal nəzarətçisi qismində iştirak etmək istəyən namizədlərin fəaliyyətinin sertifikatlaşdırılması bu qaydalar əsasında həyata keçirilir.
2. Zal nəzarətçisinin fəaliyyəti DİM tərəfindən sertifikatlaşdırılır və bu haqda məlumat DİM-in **dim.gov.az** internet səhifəsində və kütləvi informasiya vasitələrində elan edilir.
3. Zal nəzarətçisi dedikdə müvafiq imtahan üçün DİM tərəfindən verilmiş zal nəzarətçisi vəsiqəsi ilə təmin olunan, imtahan zalında imtahan iştirakçılarının yerləşdirilməsinə, cavab kartlarının və sual kitabçalarının paylanmasına və yığılmasına görə məsuliyyət daşıyan, imtahanın vaxtında başlanmasına və yekunlaşdırılmasına cavabdeh olan, iştirakçıların imtahanda davranış qaydalarına riayət etməsinə birbaşa nəzarət edən, imtahan zalını reqlamentə uyğun qaydada idarə edən və fəaliyyəti "zal nəzarətçisinin təlimatı" ilə tənzimlənən şəxs nəzərdə tutulur.
4. Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması ödənişli əsaslarla həyata keçirilir. Ödənişlər geri qaytarılmır. Hər bir mərhələ üzrə ödənişin məbləği aşağıdakı cədvəldə göstərildiyi kimi müəyyənləşdirilir:

| **Fəaliyyət** | **Ödəniş məbləği(AZN)** |
|---|---|
| Qeydiyyat, sənədlərin qəbulu, müsahibə və psixometrik ölçmələr; | 0,00 |
| Ümumi intellekt səviyyənin yoxlanılması üçün ilkin test imtahanı; | 15,00 |
| Təlimlər və imtahanların texnologiyası və prosedur qaydalarına dair test imtahanı | 70,00 |
| **Cəmi:** | **85,00** |

Ödənişlər bank kartı vasitəsilə online şəkildə "AsanPay" (təhsil ödənişləri->DİM) və "Hesab.az" (təhsil->DİM), "Hökumət ödəniş portalı" (bütün ödənişlər->təhsil->DİM), expresspay.az (qeydiyyatsız ödəniş->təhsil->bütün operatorlar->DİM) və ya bu elektron ödəniş sistemlərinin şəbəkələrinə qoşulmuş ödəniş terminalları vasitəsi ilə aparıla bilər.

5. Sertifikat almaq üçün müraciət edən şəxslər aşağıdakı tələblərə cavab verməlidir:
   - Azərbaycan Respublikasının vətəndaşı olmalı,
   - Ali təhsilli və ya pedaqoji profilli ixtisaslar üzrə orta ixtisas təhsilinə malik olmalı
   - Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hər hansı bir təşkilatda işləməli (**dövlət qulluğu sertifikatı olan şəxslər və pedaqoji profilli ixtisaslar üzrə bakalavr və ya subbakalavr peşə-ixtisas dərəcəsinə malik olanlardan iş yeri tələb olunmur**)
   - Yaşı 22- 45 arası olmalı,
   - Fiziki cəhətdən sağlam olmalı,
   - Məhkumluğu olmamalı.
6. Şəxsin sertifikatlaşdırmada iştirakı onun fərdi elektron müraciəti əsasında həyata keçirilir.
7. Namizədin qeydiyyatdan keçdikdən bir neçə gün sonra elektron poçt ünvanına müsahibəyə qeydiyyatla bağlı bildiriş göndərilir. Elektron anketə daxil olaraq müsahibə gününü, vaxtını seçir

və aşağıdakı sənədləri təqdim etməklə müsahibədə iştirak edir:

- Şəxsiyyət vəsiqəsi ;
- Elektron anket (zal nəzarətçisi sertifikatına müraciət zamanı təsdiq edilmiş anket);
- Təhsil haqqında sənəd (diplom) ;
- İş yeri haqqında arayış (olduğu təqdirdə) ;
- Məhkumluq barədə arayış ;

8. Namizəd müsahibədən keçmədikdə və ya bu qaydaların 5-ci bəndində müəyyən edilmiş tələblərdən hər hansı birinə cavab vermədikdə sertifikatlaşdırılma prosesinin növbəti mərhələsinə buraxılmır. Müsahibə və psixometrik ölçmələr zamanı namizədin fiziki və psixoloji cəhətdən sağlamlığı, ümumi dünyagörüşü, nitqi, emosional davamlılıq və stress vəziyyətində işləmək bacarığı yoxlanılır. Nəticə məqbul və ya qeyri-məqbul olaraq qiymətləndirilir.
9. Müsahibədən keçən namizədlər ümumi intellekt səviyyəsini yoxlayan ilkin test imtahanı mərhələsinə dəvətedilir. İlkin test imtahanına qeydiyyatla bağlı bildiriş namizədin mobil telefonuna və ya elektron poçt ünvanına göndərilir. Namizəd elektron anketinə daxil olaraq ilkin test imtahanında iştirak etmək istədiyi günü və vaxtı seçir.
10. Test imtahanı elektron formada komputer vasitəsi ilə həyata keçirilir və imtahan nəticələrini dərhal müəyyənləşdirmək imkanı verir. Bu mərhələni uğurla keçən namizədlər isə əyani vəsaitlərlə təmin edilir (zal nəzarətçisi təlimatı, normativ sənədlər və s) və müəyyən edilmiş qrafikə uyğun olaraq iki günlük təlimə cəlb olunurlar. Ümumi nəticəsi 40%-dən az olan namizədlər növbəti mərhələyə buraxılmır.
11. Qaydalarda nəzərdə tutulmuş tələblərə uyğun gələn Vətən Müharibəsinin iştirakçıları və “Əməkdar müəllim” fəxri adı alan müəllimlər sertifikatlaşdırma prosesinin nəzərdə tutulmuş bütün ödənişlərindən azaddırlar.
12. Təlimlərə qeydiyyat elektron qaydada aparılır. Namizəd elektron poçt ünvanına bildiriş gəldikdən sonra elektron anketinə daxil olaraq təlimin vaxtı və gününü seçir. Təlimlər iki (2) gün ərzində keçirilir:

1. ***Birinci təlim günü:***

“ İmtahan prosesinin psixoloji xüsusiyyətləri” təlimi aşağıdakı mövzuları əhatə edir:

- İmtahan prosesinə aid stres və təlaş,
- İmtahana cəlb olunan tərəflərin psixoloji portretləri,
- İlkin təəssüratın imtahan gedişatına təsiri,
- İmtahan prosesində ünsiyyət xüsusiyyətləri,
- İmtahana psixoloji hazırlıq.

2. ***İkinci təlim günü:***

Dövlət İmtahan Mərkəzi tərəfindən hazırlanan təlimçilər tərəfindən tədris planına uyğun olaraq müxtəlif mövzularda keçirilir. DİM-in hüquqi statusu, strukturu və fəaliyyət istiqamətləri, imtahanlar, qəbul qaydaları, imtahanların təşkili və idarə edilməsi, məsul şəxslərin seçimi, təyinatı, qiymətləndirilməsi, imtahanların texnologiyası, auditoriyanın idarəedilməsi, zal nəzarətçilərinin və digər şəxslərin vəzifələri və funksiyaları haqqında nəzəri məlumatlar verilir və interaktiv təlimlər

keçirilir, tapşırıqlar qoyulur, fikir mübadiləsi və sual-cavab formalı söhbətlər aparılır. Zal nəzarətçisinin fəaliyyətinin daha çox praktiki tərəflərini və imtahanların təşkili, gedişi və yekunu zamanı baş verə biləcək halları və problemləri əhatə edən interaktiv treninqlər (nəzarətçi təlimatı və psixoloji stress - menecment təlimi) və praktiki məşğələ - sınaq imtahanı keçirilir.

13. Bütün təlimlərdə iştirak məcburidir. Namizədin təlimlərin hər hansı birində iştirak etməməsi onun zal nəzarətçisi kimi fəaliyyətinin sertifikatlaşdırılmasından imtina etməsi kimi qəbul olunur.

14. Təlim zamanı təlimçilər namizədləri qiymətləndirir və təlimin gündəliyində qeydlər aparır, namizədlərin tədrisin interaktiv hissəsində fəal iştirakını, stress vəziyyətində və qrup şəklində işləmək bacarıqlarını qeyd edir, problemli, münaqişə və konflikt yaradan, həddindən artıq passiv namizədlərə sertifikat verilməməsi üçün xüsusi rəy verir.

15. Təlimlər yekunlaşdıqdan sonra namizədlərin imtahanların texnologiyası və prosedur qaydalarına dair test imtahanına qeydiyyatla bağlı elektron poçt ünvanına bildiriş göndərilir. Namizəd elektron anketinə daxil olaraq test imtahanınıntarixini və saatını seçir. Bu imtahandan ən az 60% müsbət nəticə göstərən namizədlərin nəticəsi məqbul hesab olunur.

16. Namizədin yekun qiyməti aşağıdakı qaydada hesablanır: ümumi intellekt səviyyənin yoxlanılması üçün ilkin test imtahanından əldə etdiyi nəticənin 40%- ilə imtahan texnologiyası və prosedur qaydalarına dair test imtahanından topladığı balın 60 %-i toplanır.Yekunda 60% və daha çox nəticə göstərən namizədin fəaliyyəti aşağıdakı kateqoriyalara uyğun olaraq sertifikatlaşdırılır:
   - 90% və ondan yüksək nəticə göstərdikdə - A kateqoriyası;
   - 60%-90% intervalında nəticə göstərdikdə - B kateqoriyası;

   “Əməkdar müəllim” fəxri adı alan müəllimlər təlimlərdə iştirak etdikdən sonra A kateqoriyası üzrə zalnəzarətçisi sertifikatı əldə edirlər.

17. Namizədin nəzarətçi qismində fəaliyyətinin sertifikatlaşdırılması ona zal nəzarətçisi statusunun verilməsi hesab olunur və bu barədə zal nəzarətçilərinin bazasında qeyd aparılır.

18. Zal nəzarətçilərinin fəaliyyət nəticələrini yüksəltmək və daha səmərəli işləməyə motivasiya etmək üçün onların əmək haqları kateqoriyalarından asılı olaraq fərqli hesablanır. A kateqoriyalı nəzarətçilərin baza əmək haqqları 1,2-yə, B kateqoriyalı nəzarətçilərin isə 1,1-ə vurulmaqla hesablanır.

19. İmtahanlara təyinat aparılan zaman, imtahanların xüsusiyyətləri, ixtisas, yaş və digər tələblər də gözlənilməklə, zal nəzarətçisi kimi fəaliyyəti sertifikatlaşdırılmış nəzarətçilərə üstünlük verilir. Hər hansı bir imtahan üçün tələb olunan zal nəzarətçilərinin sayı zal nəzarətçisi kimi fəaliyyəti sertifikatlaşdırılmış nəzarətçilərin sayından az olduqda təsadüfi qaydada seçim aparılaraq təyinataparılır.

20. Zal nəzarətçilərinin bu şəkildə kateqoriyalara bölünməsi DİM-in tələblərindən və imtahanlarla bağlı mövcud vəziyyətdən asılı olaraq aşağıdakıları həyata keçirməyə imkan verir:
   - Daha əhəmiyyətli imtahanlara daha yüksək kateqoriyalı zal nəzarətçilərini cəlb etmək;
   - Eyni zala yüksək və aşağı kateqoriyalı zal nəzarətçilərini təyin etmək;
   - Zal nəzarətçilərinin kateqoriyalarının aşağı salınması və ya yüksəldilməsi yolu ilə onları tənbeh etmək və ya mükafatlandırmaq və s.

21. Zal nəzarətçiləri bazasına daxil edilən namizədlərin sertifikatlarının kateqoriyasının dəyişməsi onların fəaliyyətinin illik yekun qiymətləndirilməsi əsasında aparılır:
   - kateqoriyası yüksəldilir,

- kateqoriyası aşağı salınır,
- sertifikatına xitam verilir.

22. İmtahanlarda yol verdikləri ciddi qayda pozuntuları əsas alınaraq sertifikatına xitam verilən şəxslərin buprosesdə bir daha iştirak etmələrinə icazə verilmir.

23. İmtahan zamanı təlimat qaydalarını pozan nəzarətçilərə müqavilədə nəzərdə tutulmuş xidmət haqqı ödənilmir.

24. Gələcəkdə imtahan rəhbərləri zal nəzarətçisi sertifikatlaşdırılmasından keçən, nəzarətçi kimi fəaliyyəti yüksək qiymətləndirilən və müvafiq qaydalarla tənzimlənən imtahan rəhbəri sertifikatlaşdırılmasından uğurlu nəticə əldə edən namizədlər sırasından seçiləcəkdir.

25. Namizədlərə zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması prosesinin mərhələlərində aşağıdakı hərəkətləri etmək qadağandır:

**25.1.** Saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;

**25.2.** İmtahana mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kospekt, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

**25.3.** Yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə tütün məmulatları gətirmək;

**25.4.** İmtahan zalında yerini dəyişmək, gəzişmək, yerindən durmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;

**25.5.** Başqasının nəticəsinə təsir etmək, o cümlədən başqasının cavablarına və ya suallarına baxmaq və ya öz cavablarına və suallarına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

**25.6.** Nəzarətçiyə və ya digər məsul şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

26. Namizədin yuxarıda göstərilən hərəkətlərə yol verməsi halları Mərkəz tərəfindən aşkar edildikdə onun nəticəsi ləğv edilir. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.